**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında**
**İctimai şura və QHT-lərlə 2025-ci ildə görülən işlərə dair**
**HESABAT**

**İctimai şura**

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında İctimai şura "İctimai iştirakçılıq haqqında" Qanuna uyğun olaraq yaradılıb və Nazirlik üzrə hüquqi aktların qəbulunda və fəaliyyət istiqamətləri ilə bağlı ictimai nəzarətin təşkilində vətəndaş cəmiyyəti institutlarının iştirakının təmin edilməsinə xidmət edir.

**Nazirliyin saytında müvafiq məlumatların dərci**

İctimai şura ilə bağlı məlumatlar Nazirliyin www.sosial.gov.az rəsmi internet saytının "Nazirlik" bölməsinin "İctimai şura" altbölməsində dərc edilir.

Bundan başqa, yeni qanunvericilik layihələri ictimai müzakirə üçün saytın "Qanunvericilik layihələri" altbölməsində təqdim edilir.

**İctimai şuraya seçkilər**

İctimai şuranın yeni tərkibinin müəyyən edilməsi məqsədilə 2025-ci il 18 aprel tarixində seçki keçirilib.

Səsvermədə iştirak üçün qeydiyyatdan keçmiş 89 nəfər QHT və media nümayəndəsinin iştirakı ilə keçirilən seçkinin nəticəsində İctimai şuranın 9 nəfərdən ibarət yeni tərkibi seçilib.

İctimai şura yeni tərkibdə öz fəaliyyətinə başlayaraq 2025-ci il 7 may tarixində ilk iclasını keçirib.

İlk iclasda əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyev iştirak edib və İctimai şura üzvlərinə vəsiqələr təqdim olunub.

Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsinin QHT-lərlə iş sektorunun müdiri Tural Əliyev 2025-ci il 14 may tarixində İctimai şuranın yeni tərkibi ilə görüşüb. QHT-lərin ictimai nəzarət funksiyalarının gücləndirilməsi məsələləri ilə əlaqədar müzakirələr aparılıb, şura üzvlərinin təklifləri dinlənilib və sualları cavablandırılıb.

**2025-ci ildə İctimai şura və QHT-lərlə görülən işlər**

2025-ci il ərzində İctimai şuranın Nazirlikdə və tabeli qurumlarda 12 görüşü keçirilib.

Görüşlərdə əmək, məşğulluq, sosial müdafiə sahələrində həyata keçirilən islahatlar və sosial müdafiə tədbirləri, həssas əhali qruplarının məşğulluğu, əlilliyi olan şəxslərin cəmiyyətə inteqrasiyası, imtiyazlı şəxslərin mənzil təminatı və sanatoriya-kurort yollayışları ilə bağlı təqdimatlar edilib, şura üzvlərinin rəy və təklifləri dinlənilib.

Nazirlik yanında İctimai şura www.ictimaishura.az saytında keçirilən sorğunun nəticələrinə əsasən, 2025-ci ildə 18 mərkəzi icra hakimiyyəti orqanı yanında fəaliyyət göstərən İctimai şuralar arasında "İlin ən fəal İctimai şurası" seçilib.

Nazirliyin qurumları tərəfindən məişət zorakılığına qarşı mübarizə, erkən nikahların qarşısının alınması, müharibə və digər səbəbdən əlilliyi olan şəxslərlə, müharibə veteranları, şəhid ailələri ilə iş və s. mövzularda keçirilən 21 görüş və maarifləndirmə tədbirində QHT və ictimaiyyət nümayəndələrinin iştirakı təmin edilib.

Ölkənin müxtəlif rayonlarında və Naxçıvan Muxtar Respublikasında Nazirliyin qurumları tərəfindən vətəndaşların sosial təminat hüquqları, Məşğulluğa Dəstək Layihəsi, “Himayədar Ailə” qayğı modeli, məişət zorakılığından zərər çəkmiş şəxslərin müraciət qaydaları və digər mövzular üzrə 26 ictimai dinləmə keçirilib. Dinləmələrdə işaxtaran və işsiz şəxslər, dövlət və özəl sektor, QHT nümayəndələri və digər ictimaiyyət nümayəndələri iştirak edib.

Nazirliyin tabeliyindəki qurumların mərkəzlərində və filiallarında vətəndaşlara göstərilən xidmətlərin təşviqi və ictimai məlumatlılığın artırılması məqsədilə 10 infotur təşkil olunub. İnfoturlar zamanı xidmətlərin təşkili, sosial dəstək mexanizmləri və fəaliyyət istiqamətləri barədə ətraflı məlumat təqdim edilib.

İctimai şura üzvlərinə sosial sahədə aparılan islahatlar barədə məlumatlandırılması məqsədilə 13 arayış hazırlanaraq təqdim edilib. Arayışlar e-sistemlər üzərindən proaktiv xidmətlər, pensiya, müavinət və təqaüdlərin artırılması, ünvanlı dövlət sosial yardımı proqramı, DOST konsepsiyası, işğaldan azad edilmiş ərazilərdə məşğulluq tədbirləri, postmüharibə dövründə şəhid ailələri və müharibə iştirakçılarına götərilən sosial dəstək, əmək və məşğulluq islahatları və digər mövzuları əhatə edib.

Hesabat dövründə Nazirliyin rəsmi internet saytının “Qanunvericilik layihələri” altbölməsində yerləşdirilmiş 4 normativ-hüquqi akt layihəsi ictimai müzakirəyə təqdim olunub.

İctimai şura və QHT nümayəndələrindən 23 nəfərin Nazirliyin DOST TV internet televiziyasında və digər televiziya kanallarında yayımlanan 77 verilişdə iştirakı təmin edilib.

2025-ci il 29 may tarixində Sosial Xidmətlər Agentliyinin Əlilliyi olan Şəxslərin Peşə-Əmək Reabilitasiyası Mərkəzində keçirilən “Açıq qapı” günü çərçivəsində reabilitasiya prosesləri, təlim proqramları, peşəyönümlü məşğələlər və sosial adaptasiya tədbirləri barədə təqdimat keçirilib. Tədbirdə vətəndaşlar, media və QHT nümayəndələri iştirak ediblər.

Hesabat dövründə Nazirlik və tabeli qurumlar tərəfindən keçirilən 26 müxtəlif tədbirdə (bayram, maarifləndirmə, təlim və s.) İctimai şura üzvlərinin və QHT nümayəndələrinin iştirakı təmin edilib.

2025-ci il 22 iyul tarixində Dövlət Məşğulluq Agentliyinin İdarə Heyətinin sədrinin keçirdiyi vətəndaş qəbulunda İctimai şuranın sədri Elşad Məmmədov iştirak edib.

2025-ci il 4 noyabr tarixində Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriyanın Təlim və İnkişaf Mərkəzində vətəndaş cəmiyyəti institutlarının nümayəndələri üçün korrupsiyaya qarşı mübarizə mövzusunda təlim təşkil edilib. Təlimdə milli və beynəlxalq hüquqi çərçivə, tətbiq olunan mexanizmlər və ictimai iştirakçılığın rolu barədə məlumat verilib.

Sosial sifarişlər əsasında sosial xidmətlərin göstərilməsi ixtisaslaşmış QHT-lərlə əməkdaşlıq müstəvisində həyata keçirilib.Hesabat dövründə müharibə ilə əlaqədar əlilliyi olan şəxslər, veteranlar və digər həssas əhali qrupları üzrə ictimai birliklərin rəhbərləri ilə mütəmadi görüşlər keçirilib, onların rəy və təklifləri dinlənilib və aidiyyəti məsələlər üzrə məsləhətləşmələr aparılıb.